# Professor Yusif Yusifovun anadan olmasının 90 illiyi münasibəti ilə elmi-praktiki konfrans



18 dekabr 2019-cu ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Heydər Əliyev Lektoriyasında tarix elmləri doktoru, professor Yusif Yusifovun anadan olmasının 90 illik münasibəti ilə elmi-praktik konfrans keçirilmişdir. Tədbiri giriş sözü ilə ADPU-nun rektoru, professor Cəfər Cəfərov açmış, professor Yusif Yusifovun böyük elmi fəaliyyəti Azərbaycanın tarix elminə gətirdiyi yeniliklər haqqında danışmışdır. Sonra professor Yusif Yusifovun həyat və yaradıcılığı haqqında videoçarxın nümayişi olmuşdur.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Rəcəb Əliyev "Professor Yusif Yusifovun elmi nailiyyətləri" mövzusunda məruzə etmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında İdarəçilik Akademiyasının Tarix kafedrasının müdiri, dosent tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədova "Azərbaycan tarixşünaslığında Yusif Yusifovun elmi töhfəsi" mövzusundakı nitqi maraqla dinlənildi.

Bakı Dövlət Universitetinin Arxeologiya kafedrasının professoru tarix üzrə elmlər doktoru Qüdrət İsmayılzadə "Uşaqlıq dostu, ömür dostu" adı altında xatirələrini danışdı.

AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun Qədim tarix şöbəsinin müdiri tarix üzrə fəlsəfə doktoru Allahverdi Alımirzəyev "Yusif Yusifovun Azərbaycan tarix elminə gətirdiyi yeniliklər"dən söz açdı. Onun çıxışı maraqlı polemika ilə müşayiət olundu.

Bakı Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının dosenti tarix üzrə fəlsəfə doktoru Arzu Məmmədova "Yusif Yusifovun tədqiqatlarında etnogenez" məsələlərinin şərhini verdi.

Bakı Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Ülviyyə İbrahimova "Unudulmaz müəllim, böyük alim" haqqında ətraflı bəhs etdi.

AMEA-nın müxbir üzvü, Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, tarix üzrə fəlsəfə doktoru Vəli Əliyev "Professor Yusif Yusifov haqqında xatirələr"ini danışdı. Nəhayət, Yusif Yusifovun qızı, UNEC-in baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru Nailə Yusifova Yusif Yusifovun ailəsi adından universitetin rəhbərliyinə təşəkkür və minnətdarlığını bildirdi.

ADPU-nun prorektoru E.Abaszadə tədbiri yekunlaşdırmış və belə elmi-praktik konfransların əhəmiyyətindən danışmışdır.

Sonda xatirə fotoşəkilləri çəkildi.



***Ceyhun ZALLI***